# ƏLİYEV ETİBAR BÖYÜKAĞA OĞLU



Etibar Əliyev 11 iyul 1955-ci ildə Lənkəran şəhərində anadan olmuşdur. Buradakı 5 saylı orta məktəbin səkkizinci sinfini bitirdikdən sonra, 1969-cu ildə 34 saylı texniki-peşə məktəbində dülgər ixtisasına yiyələnmişdir. 1973-cü ildə hərbi xidmətə çağırılmışdır. O, 1975-ci ildə Saratov vilayətində əsgəri xidmətini başa vurub doğma yurda dönür və əvvəl Lənkəran şəhər Əhaliyə Məişət Xidməti İdarəsində, daha sonra Lənkəran Konserv Kombinatında, sonra isə “Sevinc” kiçik müəssisəsində işləyir. O, respublikamızda baş verən ictimai-siyasi hadisələrdə yaxından iştirak edir, Xalq Hərəkatının öncüllərindən biri olur. Respublikanın müstəqilliyi uğrunda canından belə keçməyə hazır olan Etibarı 1990-cı ildə keçmiş Sovet Ordusunun əsgərləri 30 gün həbsdə saxlayırlar. Lakin bütün bunlar onu yolundan döndərə bilmir. 1993-cü il avqustun 23-də “Talış-Muğan Respublikası” yaratmaq iddiası ilə dövlətimizi parçalamağa can atan bir qrup separatçı Azərbaycanın cənub bölgəsində qatmaqarışıqlıq saldı. Bu ağır günlərdə neçə-neçə günahsız insan qətlə yetirildi. Cinayətkar ünsürlərə qarşı keçirilən əməliyyatlarda Etibar Əliyev Vətənin Bütövlüyü, suverenliyi yolunda qəhrəmanlıq göstərərək, əbədiyyətə qovuşdu. Lənkəran şəhərinin Şəhidlər xiyabanında dəfn edilmişdir. Ailəli idi. İki qızı yadigar qalıb. Azərbaycan Respublikası prezidentinin 24 avqust 1993-cü il tarixli 740 saylı fərmanı ilə Əliyev Etibar Böyükağa oğluna ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir. Adına Lənkəran şəhərində küçə var. Şəhərin “23 Avqust” meydanında büstü qoyulub.